# Cəmiyyətin ən fəal təbəqəsi

**"Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər. Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik".**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



Gənclik insan həyatının ən gözəl çağıdır. Gənclər heç nədən qorxub çəkinmədən çətinliklərin üstünə cəsarətlə gedir və böyük uğurlar qazanır, bəzən mümkün olmayanı mümkün edirlər. Gənclik böyük güc, tükənməyən enerji və məğlubedilməz qüvvə deməkdir. Bu təbəqə daim öz üzərində çalışmaq, öyrənmək, arzusunda olduğu amallar uğrunda sonacan mübarizə aparmaq, zərrə-zərrə təcrübə toplamaq, getdikcə püxtələşmək, zaman-zaman formalaşmaq, qoynunda doğulduğu torpağa, ölkəyə, dövlətə layiqli vətəndaş olmaq amalı ilə yaşayır.

Bütün bu və ya digər amillərə əsaslanıb demək olar ki, gənclər cəmiyyətin aparıcı, qurucu, tutduğu yoldan heç vaxt geri çəkilməyən, məğlub olmayan qüvvəsidir. Onlar Vətənimizin işıqlı sabahıdır, xoş gələcəyidir. Elmi biliklərə dərindən sahiblənmiş, müasir texnologiyalarla işləməyi bacaran, sağlam əqidəli, milli-mənəvi dəyərlərə malik və sadiq olan gənclər Vətənimizi, xalqımızı uğurlu gələcəyə aparan böyük və tükənməz bir qüvvədir. Gənclərimizin bilikli, savadlı, sağlam ruhda böyüməsi və inkişafı üçün böyük şəxsiyyət Heydər Əliyev mühüm qərarlar qəbul etmişdir. Zamanında atılan zəruri addımlar gənclərimizin ölkəmizə layiqli vətəndaş kimi yetişməsində və formalaşmasında mühüm rol oynamışdır. Bütün bunlara görə xalqımız dünəni, bu günü və sabahları üçün Ulu Öndər Heydər Əliyevə minnətdardır. Ümummilli Lider həmişə xalqına güvənirdi, onu özünə ən etibarlı dayaq bilirdi, ölkəmizin gənclərinə isə böyük ümidlər bəsləyirdi.

Dahi şəxsiyyət gənclərə yüksək qiymət verərək demişdir: "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir".

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də uğurla və qətiyyətlə davam etdirilir. Ölkəmizdə gənclərə böyük inam bəslənilir, diqqət və qayğı göstərilir, daim irəli çəkilir, onlara mühüm vəzifələr tapşırılır. Bu gün Azərbaycan gəncliyi ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində böyük fəallıq göstərir, səylə çalışır. Bütün zamanlarda cəmiyyətin aparıcı qüvvəsi olan gənclər dövlət başçımızın siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirləri dəstəkləyir, sabitliyin və davamlı inkişafın təmin olunmasında yaxından iştirak edərək bu müqəddəs işlərə öz töhfələrini verirlər. Getdikcə ölkəmizin ictimai həyatında gənclərin rolu daha da yüksəlir. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Bütün bunlar isə dövlətimizin gəncliyə göstərdiyi diqqət və qayğının nəticəsidir.

Yeniliklərlə nəfəs alan gənclərimiz daim axtarışdadırlar. Məqsəd və amallarına çatmaq üçün yüksək bacarıqla çalışır, sağlam həyat tərzi yaşayırlar. İnamla söyləmək olar ki, himayəsində dayanan dövləti və onun qətiyyətli Lideri ətrafında sıx birləşən müasir gənclik Prezident İlham Əliyevin ən böyük, ən etibarlı dəstəkçisi və onun uzaqgörən, xalqı zəfərlərə qovuşduran siyasətinin ən etibarlı icraçısıdır.

Azərbaycan gəncliyi üçün ən mühüm sınaqlardan biri 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsində oldu. Vətən torpaqlarının azadlığı uğrunda qələbə əzmi ilə döyüşə atılan gənclərimiz göstərdikləri igidlikləri ilə adlarını xalqımızın qəhrəmanlıq tarixinə böyük hərflərlə yazdılar. Bu cəsur oğulların rəşadəti sayəsində əldə olunan Zəfərlə Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Keçmiş məcburi köçkünlərin doğma ocaqlarına qayıtmaları üçün əlverişli şərait yaradıldı.

Vətəni canlarından da çox sevən gənclərimiz 44 günlük Vətən müharibəsində öz güclərini, cəsarətlərini bir daha dünyaya göstərdilər. Onlar Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında torpaqlarımızı işğaldan azad etdilər. Qorxmadan, ölümün gözünün içinə dik baxaraq qəsbkarların üzərinə atıldılar. Üçrəngli bayrağımızı Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə və Laçında dalğalandırdılar. Bütün bunlar isə hər şeydən əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək və məğlubedilməz sərkərdəlik qabiliyyətinin, ordumuzun, xalqımızın qırılmaz gücünün, möhkəm iradəsinin, monolit birliyinin və vəhdətinin çox parlaq nümunəsidir. Bu qələbənin qazanılmasında şanlı və qəhrəman Azərbaycan əsgər və zabitlərinin əvəzsiz rolu danılmazdır. Ona görə də Azərbaycan xalqı yurdumuzun xilaskarları olmuş, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş Adəm Əliyev, Ramil Quluyev, Murad Qurbanov, Ziyadxan Əliyev, Rəvan Məlikov, Pərviz Novruzov, Ülvi Azayev, Nurlan Dadaşov, Cəmil Həşimli, Elnur Abışov və başqa cəsur oğulları həmişə minnətdarlıq hissi ilə xatırlayacaq. Gənclərimiz igidliyi və qəhrəmanlığı bu cəsur oğullardan öyrənəcəklər.

Vətənpərvərlik ruhunda böyüyən gənclərimiz torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə böyük fədakarlıq və rəşadət nümayiş etdirdilər. Onlar cəsarətləri və hünərləri ilə erməni işğalçılarının uzun illərdən bəri cəmiyyətdə dolaşan məğlubedilməzlik mifini darmadağın etdilər. Bütün dünyaya kimin güclü, kimin gücsüz olduğunu göstərdilər. Belə vətənpərvər, igid gəncləri olan Azərbaycan bundan sonra da heç bir qüvvə qarşısında yenilməyəcək, daim şan-şöhrətini, gücünü, qüdrətini qoruyub saxlayacaq və daha da artıracaq.

İnamla demək olar ki, ölkəmizdə gənc nəslin inkişafı, tərəqqisi, cəmiyyətdə layiqli yer tutması naminə həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabahlara aparacaq, daim zəfərlərə və uğurlara qovuşduracaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 avqust (№173).- S.8.